# "Nəsimi ili"nə töhfə...

**2015-ci ildə Rusiyada "Ədəbiyyat ili" elan edilləndə, sözün yaxşı mənasında, həsəd hissi bütün varlığıma hakim kəsilmişdi. Əlbəttə, bu, həm ruhumdakı ədəbiyyat eşqinin, həm də yaxşı mənada maksimalizmin tələbi (həsədi) idi. Amma aradan gözləməsi o qədər də çox olmayan vaxt keçmədi - cəmi 4 il sonra Prezident İlham Əliyevin Sərəncamı ilə bu il ölkəmizdə Nəsimi ili elan olundu. Eyni zamanda bu il ədibin 650 illik yubileyi keçiriləcək.**

"Nəsimi ili" elə həm də ədəbiyyat ili deməkdir. Sözə, mənəviyyata, əqidəyə, xalqa bağlılığa qiymət kimi də bu ilin xüsusi önəmi var. Çünki Nəsimi yaşadığı həyatla, ədəbi irsi ilə örnək şairdir. Dövlətin belə bir örnək şairə qiymət verməsi, onu təbliğ etməsi, əlbəttə, müstəsna və qiymətli ədəbi, mədəni hadisədir.

Bu il Nəsiminin indiyə qədər dilimizə çevrilməyən əsərləri artıq Azərbaycancamızda səslənməkdədir, yeni tədqiqat əsərləri üçün geniş meydanlar açılıb. Dahi ədibin irsi dünyanın bir çox dillərinə çevrilərək yayımlanır. Musiqimizdə, rəssamlığımızda, heykəltəraşlığımızda və s. sahələrdə də görkəmli söz ustası Nəsiminin xalqa qayıdışı davam etməkdədir.

"Kaspi" qəzeti və "Kaspi" Təhsil Şirkəti də "Nəsimi ili" çərçivəsində "Əbədiyyət günəşi" adlı məqalə müsabiqəsi elan edib. Artıq bu müsabiqəyə əsər qəbulu yekunlaşıb. Bu il ərzində həmin müsabiqənin qalibləri mükafatlandırılacaq və təqdim olunan və seçilən məqalələr ayrıca kitab şəklində çap ediləcək. Bu uğurlu layihəni də "Nəsimi ili"nə dəyərli töhfə hesab etmək olar.

Cənab Prezidentin Sərəncamından irəli gələn işlər həm bu gün görülür, həm də il ərzində həyata keçiriləcək.

Milli hisslərə, heysiyyətə, ədəbiyyat və mədəniyyətə, dövlətçiliyə sədaqət və diqqətlə yanaşan üç əsrin qəzeti - "Kaspi" bu günə qədər Heydər Əliyev, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov, Məhəmmədəmin Rəsulzadə, Əli bəy Hüseynzadə, İsmayıl bəy Qaspıralı, Hacıbəylilər, Əhməd bəy Ağaoğlu, Firudin bəy Köçərli, Şahtaxtlılar, Hacı Zeynalabdin Tağıyev, Nəriman Nərimanov, Ömər Faiq Nemanzadə, Şəfiqə Əfəndizadə, İsa Hüseynov, Vaqif Səmədoğlu kimi görkəmli ziyalılara bağlı "Xüsusi buraxılış"lar hazırlayıb. Növbəti Xüsusi buraxılışımız isə İmadəddin Nəsimi yaradıcılığına həsr olunub...

**Fərid Hüseyn**

Kaspi 2019.- 25-27 may.- S.9.